# Məhəmməd Ağa Şahtaxtlı

**Fəridə Qasımova (Xudiyeva)**
*fəlsəfə doktoru hazırlığı üzrə dissertant.*
*ADPU*
**E-mail:** gulizade.gunel@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. F.M. Allahverdiyeva,
ped.ü.f.d., dos.Ə.B. Qədimova

**Açar sözlər:** Məhəmməd ağa Şahtaxtlı, qadın azadlığı, ziyalı, təbrik teleqramı
**Ключевые слова:** Мухxамед ага Шахтахлы, свобода женщин, интеллигент, поздравительная телеграмма
**Key words:** Mohammed him Shahtahli, the free woman, the intellect, the regal telegram

XX əsrin əvvəlləri Azərbaycan milli mətbuatının təşəkkülü uğrunda ziyalıların qızğın fəaliyyəti dövrüdür. Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə və başqaları bu hərəkatın önündə getmişlər.

Əsası 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə qoyulmuş milli mətbuatımız xalqın maariflənməsi yolunda misilsiz xidmətlər göstərmişdir. Odur ki, bu işdə qəzetin böyük rolunu, onun məqsəd və vəzifələrini yaxşı dərk edən mühərrir ziyalıların həyat və fəaliyyətlərinin tədqiqi zəruridir.

Belə ziyalılardan biri də publisist, şərqşünas, dilçi, pedaqoq, bir sıra beynəlxalq cəmiyyətlərə üzv seçilmiş Şahtaxtlı (Şahtaxtinski) Məhəmməd ağadır (1846-1931). O, Naxçıvan, Tiflis, Peterburq Leynsiq şəhərlərində təhsil almış, Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi, elmi əsərlər yazmışdır. Məhəmməd ağa Şahtaxtlı M.F. Axundovun davamçısı kimi Azərbaycanda əlifba islahatı ilə məşğul olmuş, Şərqdə ilk dəfə bu məsələ haqqında əsər yazmışdır. Onun mühərrirlik fəaliyyəti qadın azadlığı, ana dili, dünyəvi elmlər, əlifbanı sadələşdirmək və s. məsələləri əhatə etmişdir. Moskva, İstanbul və Bakıda çıxan bir çox qəzetlərin əməkdaşı olmuş Məhəmməd ağa 1898-ci ildə Tiflisdə Azərbaycan dilində qəzet çıxarmağa cəhd göstərmiş, lakin çar senzurası buna icazə verməmişdir. Nəhayət, 1903-cü ilin martından "Şərqi-Rus" adlı qəzetin nəşrinə icazə ala bilmişdir. "Şərqi-Rus" Məhəmməd ağanın Tiflisdə açdığı və sonralar "Qeyrət" adlanan xüsusi mətbəəsində çap olunmuşdur (232-ci nömrəsindən qəzetə Cəlil Məmmədquluzadə redaktorluq etmişdir).

Məhəmməd ağa Şahtaxtlı qəzetin səhifələrində dərc etdiyi elmi, tənqidi publisistik əsərlərində müstəmləkəçilik, irqçilik, qadın əsarəti, dövlət quruluşu, demokratiya, din və şəriət haqqında dövrünə görə mütərəqqi fikirlər irəli sürmüşdür. Azərbaycan qadınının maariflənməsi, xüsusən, savadlı qadınların gənc nəslin tərbiyəsində iştirakı onun diqqətini daim cəlb etmişdir. Bu cəhətdən "Şərqi-Rus" qəzetinin nəşrə başlaması ilə əlaqədar Bakı birinci rus-müsəlman qız məktəbinin müəllimi Şəfiqə xanım Əfəndizadənin (1882-1959) göndərdiyi təbrik teleqramı və Məhəmməd ağanın ona yazdığı cavab Azərbaycanın maarif tarixinin bir səhifəsini işıqlandırdığı üçün qiymətlidir. Aşağıda həmin teleqramı və mühərririn cavabını olduğu kimi dərc edirik:

*"Maarifpərvər rif'ətli Məhəmməd ağa Şahtaxtinski hüzuri-alilərinə Əfəndim həzrətləri!*

*"Şərqi-Rus" - mübarək ünvanlı həvadesi-nameyi-milli bu milləti-məzlumeyi-məhrumə üçün zülmətdə ziya olaraq Məşriqdən fəcri-sadiq gibi tülu elədi. Qişayi-qəflətə bürünmüş məmləkəti günəş gibi təhvirə başladı. Ümidi-qəvilərimiz vardır ki, anası olmuş millətin gözünü açıb, üzünü güldürəcək. Keçən nohusət (fəlakət-F.Q.) zamanları üçün qəza mafat (puç-F.Q.) edəcəkdir. Əhlinə ehalə olunan ümurimünəzzəmə içində xeyir və bərəkət müqərrərdir. Rical və nisa cümləmizin gözləri aydın!... Gözlərimiz aydın ki, axırımız xeyirə döndü.*

*Ey, siz, mənəvi ata! Bu əmri-əzim, səmәreyi-səʼy və qeyrəti dindarəniz ilə hüsuli-nəzir oldu. Bu təşəbbüs xeyli zaman idi bir qəyuri-milləti gözləyib həsrət gözü ilə baxıb durmaqda idi. Həmd olsun bu fütuhat sizlərə müyəssər imiş, nə ali himmət! Hə mübarək və müəssir ixlas?!...*

*Xuda davamına tovfiq-məvanidən məsun eləyə, amin!*

*Bakı müsəlman qız məktəbinin ədəbiyyat müəllimәsi Şəfiqə Şeyxzadə".*

*"İdarədən (Məhəmməd ağa Şahtaxtlı)*

*Bir çox əşxas təşəbbüsümüzü təşviq niyyəti ilə bizi təqrizləri ilə sərəfraz buyurub və buyurmaqdadırlar. Səmim qəlblə təşəkkür edirik. Amma nə üçün doğrunu açıqdan bəyan eləməyək? Təqrizlərin heç biri Şəfiqə xanım Şeyxzadəninki kimi bizə güvara olmadı. Səbəbi budur: Bu təqriz feilən bizə göstərir ki, bizim əqidəmizcə millətimizin nəslinin dünyada bəqası üçün labüd, vacib olan arvadların kəmalat və tərbiyəcə dərəcələrinin ucalmağı nəinki nəzəri yolda mümkündür və bəlkə həqiqətən nəfsi əmirdə əmələ gəlibdir. Əgər o biri xanımlarımız da öz vəzifələrində əsrin icab etdiyi hazırlığa və istedada Şəfiqə xanım özününkünə olduğu qədər olsa da idilər, millətimizin həyatına kəfil olan cəmiyyəti şərtlərin lap böyüyü vücuda gəlmiş olar idi. Şəfiqə xanım nədir? Mükəmməl bir ədibə, mükəmməl bir müəllimə? Nə eləyir? Qızlara ki, gələcəkdə övlad anası və ev sahibi olacaqlar, dil və ədəbiyyat öyrədib, insana cənabi-həqqin ən böyük ehsanı olan əql və zəkadan həm faidə və həm ləzzət yolunu öyrədir. Mədəni millətlərin də ədəbiyyat müəllimələri Şəfiqə xanım kimidirlə, bundan artıq deyillər.*

*İndi məsələ Şəfiqə xanım kimilərdən millətin təməddünə fe'lən müstəid olduğuna yə'qin qəti hasil edib bunun kimilərin sayını çoxaltmaqdır.*

*Çox yox, beş-altı il bundan irəli Şəfiqə xanım kimi bir şəxsin bizim içimizdə varlığı mümkün deyildi. Çün qız məktəbi yox idi ki, müəllimə ola bilsin.*

*Afərin Hacı Zeynalabdin Tağıyıyevə ki, yüz minlər ilə manatlar sərf eləyib, müsəlmanlar içində qız məktəbi açıb müsəlman arvadlarını indiki tədənni və əsarət halından xilas etmək üçün ən müəssir çarəni vücuda gətirdi. Hacı Zeynalabdin mütləq cəmiyyəti və mədəni reformatordur.*

*Hacının böyük xeyir və xeyratları ilə bərabər bə'zi kərə şiə məktəbinin xüsusunda rəva gördüyü kəhgirliyi (tərs, inadcıl – F.Q.) kimi pərdə götürməz halətləri də var. Bizim borcumuz isə həqiqətnəvislikdir. Yaxşılığı dediyimiz kimi yamanlığı da gizlətməyəcəyik. Biz meydana onun üçün çıxdıq ki, xalqa doğru söz deyək və nəinki ona buna vicdan firuşanə mədhiyyələr oxuyaq".*

*"Şərqi-Rus". 1903, №7*

**Məqalənin aktuallığı.** M. Şahtaxtlı böyük mütəfəkkir, ictimai xadim kimi dövrün elmi-mədəni mühitində müstəsna xidmətləri ilə əvəzsiz işlərə imza atmışdır. "Şərqi-Rus" qəzeti, qadın təhsili, məktəb islahatları və s. kimi sahədə gördükləri buna nümunədir.

**Məqalənin elmi yeniliyi.** XIX əsrin sonu XX əsrin əvvəllərinin problemlərinin həlli sahəsində M. Şahtaxtlının elmi-pedaqoji və mətbuat sahəsindəki fəaliyyəti ciddi faktura ilə səciyyələnir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Pedaqoji fikir tariximizi, mətbuatın keçib gəldiyi yolu öyrənmək baxımından dolğun təsəvvür formalaşdırır və daha geniş təhlilləri zəruri edir.

## Ədəbiyyat

1. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982.
2. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Elm və Təhsil, 2011.
3. Həbibbəyli İ. Millətin canlı heykəli. Məhəmməd ağa Şahtaxtlı. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006.
4. Məmmədquluzadə C. Əsərləri . 6 cilddə, VI c. Bakı: Azərnəşr, 1985.
5. Şahtaxtlı M. Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı. "Kaspi" qəzeti, 1891, № 23.
6. Şahtaxtlı M. Dərdimiz, dərmanımız. "Şərqi-Rus", 1903, 13 aprel, № 6.
7. "Şərqi-Rus" qəz., 1903, № 7.

**Ф. Касумова (Худиева)**

## Мухаммед Ага Шахтахтлы

## Резюме

В данной статье повествуется о публицисте, востоковеде, филологе, педагог еи интеллигенте Мухаммед Аге Шахтахтлы, последователе М.Ф.Ахундова. Автор статьи представил текст поздравительной телеграммы учительницы Первой Бакинской русско-мусульманской школы Шафиги ханум Эфендизаде адресованной Мухаммеду Аге Шахтахтлы и его ответ на поздравление. Мухаммад Ага Шахтахли на страницах газеты публиковал научные, критические и публицистических статьи о демократии, государственности религии, женском неправии.

**F. Gasimova (Xudiyeva)**

## Muhammed Aha Shahathti

## Summary

In the article he talks about a publicist, vostokovede, philologist, educator, educator Muhammad Age Shahtahtly, poster of M. Akhundov. The author of the article has presented the text of the telegram of congratulations to the tutor of the first Bakinsky Russian-muslim school Shafiigi hanum Efendizada addressed by Muhammad Age Shahtahtly and his thanks to the posadravlenie. Muhammad Agha Shahtahli published articles on scientific, critical and publicistic articles about democracy, statehood, women, and non – governmental organizations.

**Redaksiyaya daxil olub:** 24.05.2018